# Şəhid ailələri onlara göstərilən diqqət və qayğıdan razılıq edirlər

**Sentyabrın 12–14-də Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısını alan zaman şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın ailələri anım günlərində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları tərəfindən ziyarət olunur. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Pərvinə İsmayılova 44 günlük Vətən müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə şəhid olmuş Azərbaycan Silahlı Qüvvələrinin mayoru Natiq İsmayılovun ailəsini ziyarət edib.**



Xatırladaq ki, Hərbi Akademiyanın məzunu olan Natiq İsmayılov 2016-cı ilin Aprel döyüşləri zamanı və 44 günlük Vətən müharibəsində misilsiz xidmətlər göstərib. Mayor 2020-ci il oktyabrın 17-də Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Natiq İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

Ailə ilə görüşdə bildirilib ki, torpaqlarımızın azadlığı uğrunda canından keçən hər bir Vətən övladının xatirəsi hamımız üçün əzizdir. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyət istiqamətlərindən biri də müharibə veteranları, əlilliyi olan şəxslər və şəhid ailələrinə xidmətlə bağlıdır. Şəhid mayor Natiq İsmayılovun iki övladı mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə bir neçə təlimə cəlb edilib. Onlar bütün fədakar Vətən övladlarının dəyərli əmanətləri kimi diqqət və qayğı ilə əhatə olunurlar.

Nazirliyin əməkdaşları ötən həftə sentyabrın 12–14-də Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısını alan zaman şəhidlik zirvəsinə ucalan şəhid baş gizir Elnur Rüstəmovun Xaçmaz rayonu Əbilyataq kəndində yaşayan ailəsi ilə görüşüblər. E.Rüstəmov Vətən müharibəsi iştirakçısı olub. O, torpaqlarımızın azad olunmasında göstərdiyi şücaətə görə "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. Ailə üzvləri ilə söhbət zamanı şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs olunub. Onun xatirəsinin daim qəlbimizdə yaşayacağı vurğulanıb. Həmçinin ailənin yaşayışının hər zaman diqqətdə saxlanılacağı, şəhid ailələri üçün nəzərdə tutulan digər dəstək tədbirləri ilə əhatə olunacaqları qeyd edilib.



Növbəti görüş şəhid Ümid Həsənovun Quba rayonu İsnovqışlaq kəndində yaşayan ailəsi ilə olub. Söhbət zamanı şəhid ailələrinə dövlət tərəfindən həyata keçirilən sosial dəstək tədbirləri barədə məlumat verilib. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə canından keçmiş qəhrəman Vətən övladlarının xatirələrinin əbədi olaraq qəlbimizdə yaşayacağı vurğulanıb.

Sentyabrda törədilən genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhidlik zirvəsinə ucalan Bəxtiyar Muradovun ailəsini nazir müavini Anar Əliyev ziyarət edib və ailənin sosial vəziyyəti ilə maraqlanıb. O bildirib ki, şəhid ailələri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunur və bu, davamlı olacaq. Görüş zamanı şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs olunub, onun xatirəsinin daim qəlbimizdə yaşayacağı bildirilib.

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin rəhbərliyi tərəfindən sentyabrda baş verən genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhidlik zirvəsinə ucalan Cavidan Bədəlovun İsmayıllı rayonunda və Nail Abbaslının Oğuz rayonunda yaşayan ailələri ziyarət edilib. E.Səfərli ailələrin sosial vəziyyəti ilə maraqlanıb. Görüşdə qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, şəhid ailələri ilə bağlı bütün sosial dəstək tədbirləri mütəmadi həyata keçirilir, həmçinin bu kateqoriyadan olan şəxslər daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Şəhidlərimizin keçdiyi şərəfli döyüş yolundan bəhs olunub, xatirələrinin daim qəlbimizdə yaşayacağı vurğulanıb. Şəhid ailələri onlara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılıq ifadə ediblər.

Şəhidlik zirvəsinə ucalan əsgər Rəfael Rüfət oğlu Fətullayevin Neftçala rayonunun Bankə qəsəbəsində yaşayan ailəsi də nazirliyin əməkdaşları tərəfindən ziyarət edilib. 2021-ci ildə hərbi xidmətə gedən Rafael 2022-ci il sentyabr ayının 13-də Kəlbəcərdə qəhrəmancasına şəhid olub. Ailənin sosial-məişət vəziyyəti diqqətə götürülüb və bildirilib ki, dövlət başçısının şəhid ailələri və müharibə əlillərinə xüsusi qayğısının nəticəsi olaraq onlarla bağlı sosial dəstək proqramları icra olunur. Qəhrəman hərbçilərimizin ailələrinin sosial-məişət problemlərinin həlli istiqamətində davamlı addımlar atılır.

Sentyabrda təxribatların qarşısını alan zaman şəhidlik zirvəsinə ucalan Fərid Quliyevin ailəsini isə nazir müavini Hidayət Abdullayev ziyarət edərək, ailənin sosial vəziyyəti ilə maraqlanıb. Bildirib ki, şəhid ailələri ilə bağlı bütün sosial dəstək tədbirləri mütəmadi həyata keçirilir. Bu kateqoriyadan olan şəxslər daim dövlətin diqqət və qayğısı ilə əhatə olunur. Görüş zamanı şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs olunub, xatirəsinin daim əziz tutulacağı bildirilib.

Şəhid ailələri ilə görüşlərdə əsas o fikir diqqətə çatdırılıb ki, torpaqlarımızın işğaldan azad olunması, eyni zamanda, ayrı-ayrı vaxtlarda Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizə qarşı törədilən hər hansı təxribatın qarşısının alınmasında şəhidlik məqamına yüksələn oğullarımızın ailə üzvləri dövlətin diqqət və qayğısını öz üzərlərində daim hiss etməli, Prezidentin tapşırığı ilə icra olunan sosial-dəstək proqramlarından yararlanmalıdırlar.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 5 oktyabr.- S.8.